# Ulu öndərin uşaq şahmatçılara böyük qayğısı

**Ümummilli lider Heydər Əliyevin iyirmi beş il əvvəl-- 1998-ci ilin fevralında və elə həmin ilin sonlarında imzaladığı iki sərəncamla Azərbaycanda şahmatın inkişafında yeni mərhələ başlandı. "Azərbaycan uşaq şahmatçıları Teymur Rəcəbov və Vüqar Həşimova dövlət qayğısının artırılması haqqında" və "Azərbaycan uşaq şahmatçılarına dövlət qayğısının artırılması haqqında" sərəncamlar respublikamızın rəhbərinin zəka sahiblərinin qədim və müdrik oyununa verdiyi böyük əhəmiyyətdən irəli gəlirdi. Hadisələrin sonrakı inkişafı da göstərdi ki, bu şahanə gedişlər vaxtında atılmış dəqiq addımlardır.**

Lakin son iyirmi beş ildən əvvəl iyirmi dörd illik bir məsafə də olmuşdu. Həmin dövrdə də bütün idmanımız kimi, şahmatla da bağlı mühüm qərarlar qəbul edilmişdi. Söhbət 1974-cü ildən 1998-ci ilə qədər olan dövrdən gedir.

Təkrarolunmaz və yeri gəldikcə xatırlanmağa layiq olan böyük bir hadisə Azərbaycanın idman tarixində özünə əbədi yer etmişdir. Həmin hadisənin artıq əlli illiyi ərəfəsində olsaq da, onun respublikamızda idman hərəkatının təbliğinə və inkişafına verdiyi töhfə unudulmayıb.

Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin təşəbbüsü ilə 1974-cü il iyunun 21-də keçirilmiş respublika partiya fəalları yığıncağı bu ali təşkilatın əvvəlki belə tədbirlərindən onunla fərqlənirdi ki, yığıncaq bütünlüklə Azərbaycanda bədən tərbiyəsi və idmanın vəziyyəti və onu daha da yaxşılaşdırmaq məsələsinə həsr olunmuşdu.

Problemlər haqqında açıq və prinsipial söhbətin getdiyi, qarşıda duran mühüm vəzifələrin işgüzar şəraitdə, hərtərəfli müzakirə olunduğu respublika partiya fəalları yığıncağı tezliklə öz bəhrəsini verməyə başladı və ötən əsrin yetmişinci illərinin ikinci yarısı Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafı ilə əlamətdar oldu. Respublikamızda ciddi ehtiyac duyulan şahmat məktəblərinin təməli də elə o zaman qoyuldu. Bir çox şəhər və rayonumuzda açılan belə məktəblər onlara bəslənilən ümidi doğruldub, on minlərlə yeniyetmənin sevimli məşğələ və istirahət yerinə çevrildi. Sonralar əldə olunan uğurlar məhz güclü şahmat ənənələrimiz sayəsində mümkün olmuşdur. Azərbaycan şahmatçıları da öz növbələrində buna görə ulu öndərə borclu olduqlarını bildirir, qələbələrini bu dahi şəxsiyyətin adı ilə bağlayırlar.

Bu gün, demək olar, bütün bölgələrimizdə şahmat məktəblərinin fəaliyyət göstərməsi təkcə paytaxt Bakıda deyil, istisnasız olaraq, respublikanın hər yerində bu gözəl oyuna marağı artırır. Kütləvilik isə ustalığın, böyük qələbələrin rəhnidir. Səmərəli məşğələlər üçün şərait olanda, üstəlik də, ümidverici yeniyetmələrin öz idman istedadlarından tam şəkildə istifadə edə bilmələri üçün onlara gündəlik diqqət yetirildikdə uğurları çox gözləmək lazım gəlmir.

Qədim mədəniyyəti kimi şahmatda da yaxşı ənənələri olan Azərbaycanın indi idmanın bu növündə dünyanın sayılıbseçilən ölkələri sırasında olması təsadüfi deyil. Bu, beynəlxalq idman dairələrində də yekdilliklə etiraf olunur.

Azərbaycanın kişilərdən ibarət milli komandasının öz tarixində üç dəfə Avropa çempionu olması qrossmeysterlərimizin yüksək ustalığından xəbər verir. Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, ilk çempionluqdan sonra təəssüf ki həyatı tərk etmiş Vüqar Həşimov, Rauf



Məmmədov, Qədir Hüseynov və Eltac Səfərlidən ibarət heyət üç dəfə-- 2009-cu ildə Novi Sadda (Serbiya), 2013-də Polşanın paytaxtı Varşavada və bundan dörd il sonra Yunanıstanın Krit adasında keçirilən çempionatlarda bütün rəqiblərini qabaqlamağı bacarmış və qızıl medalları Azərbaycana gətirməklə Avropanın ən parlaq komandası kimi gözəl bir tarix yazmışdır. Əgər qitə çempionatlarının bütün tarixini nəzərdən keçirsək, belə böyük nailiyyətlə heç də hər ölkə öyünə bilməz.

Son iyirmi beş ildə Azərbaycan şahmat məktəbinin yetirmələri müxtəlif yaş qruplarında dəfələrlə dünya və Avropa birinciliklərinin, digər mötəbər beynəlxalq yarışların qalib və mükafatçıları olmuşlar. Bu gün yüksək səviyyəli turnirlərdə çıxışlarını inamla davam etdirən Ş.Məmmədyarov, T. Rəcəbov, R.Məmmədov, Q.Hüseynov və E. Səfərli, eləcə də, qadın şahmatçılar Günay Məmmədzadə, Gülnar Məmmədova, Ülviyyə Fətəliyeva, Gövhər Beydullayeva və Xanım Balacayeva yeniyetmələrə yaxşı nümunədirlər.

İndi onların çıxışlarını izləyəndə, uğurlarına sevinəndə, bu zaman həm də keçmişi xatırlayanda görürsən ki hələ ötən əsrin ikinci yarısında bizdə Aynur Sofiyeva, Firuzə Vəlixanlı, İlahə Qədimova kimi istedadlı qadın şahmatçılar olub. Onlardan əvvəl isə Tatyana Zatulovskaya, Elmira Əliyevanın adları idman mətbuatında tez-tez çəkilirdi.

Bu yaxınlarda başa çatmış kişilər arasında növbəti Azərbaycan çempionatının qızıl medalının sahibi Vasif Durarbəyli, gümüş və bürünc mükafatçılar Vüqar Əsədli və Eltac Səfərli beynəlxalq yarışlarda da növbəti zirvələr fəth etmək əzmindədirlər.

Çox xoş haldır ki, 49 il əvvəl keçirilmiş və təşəbbüskarı təkrar edək ki, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev olmuş respublika partiya fəalları yığıncağının qəbul etdiyi və ardıcıl surətdə həyata keçirilən qərar və müddəalar öz müsbət nəticəsini verməkdə davam edir. Bu barədə danışarkən ötən il birdən-birə iki təmsilçimizin Abdulla Qədimbəyli və Gövhər Beydullayevanın iyirmi yaşadək gənclər arasında dünya çempionatının qalibləri olması faktını qeyd etmək kifayətdir. İtaliyanın Sardiniya adasında neçə-neçə ölkənin yüzlərlə nümayəndəsinin kəskin rəqabətində həm oglanların, həm də qızların mübarizəsinin yekununda qızıl medallar Azərbaycan təmsilçilərinə təqdim olunmuşdur. Bu, dünya çempionatları tarixində nadir hadisədir.

Bu gün Azərbaycanda keçirilən böyük beynəlxalq turnirlərin bir-birini əvəz etməsi də heç kimi təəccübləndirmir. Şahmatçılarımızın qazandıqları uğurlar onların ölkəsində dünya və Avropa birinciliklərinin, Dünya kuboku turnirlərinin və digər yarışların təşkilinə inamla yol açır. Bir də ki, beynəlxalq və Avropa şahmat federasiyalarının rəhbərləri Azərbaycanda bütün yarışların yüksək səviyyədə təşkil olunduğunu yaxşı bilirlər. Ötən payız Bakıda unudulmaz qrossmeyster Vüqar Həşimovun xatirə turnirinin, eləcə də, Şuşada dünyanın məşhur kişi və qadın qrossmeysterlərinin iştirakı ilə keçirilən yarışların əla təşkilinə heç kim biganə qalmadı, hamı bu turnirlərdən böyük zövq aldı.

Azərbaycanda şahmat ən sevimli və uğurlu idman növlərindən biri kimi öz inkişafını davam etdirir. Onun pərəstişkarları gündəlik qayğı və diqqət sayəsində onlara yaradılmış lazımi şəraitdə yorulmadan qədim və müdrik oyunun incəliklərinə daha mükəmməl yiyələnir, uğurlarını getdikcə artırırlar.

Artıq birinci ayını başa vurduğumuz 2023-cü ildə şahmatda ilk böyük qələbə xəbərimiz uzaq Çin Xalq Respublikasından gəldi. Ölkəmizdə qadınlar arasında ən yüksək reytinqli qrossmeyster Günay Məmmədzadə orada keçirilmiş mötəbər beynəlxalq turnirin qalibi olmuşdur.

Şahmatda hər qələbə, hər medal isə zəka sahiblərinin böyük istedadının təsdiqidir. Ulu öndər Heydər Əliyevin həmvətənləri üzərlərinə düşən məsuliyyəti yaxşı dərk edir, ona əbədi hörmət və ehtiramlarını gərgin yarışlarda layiqli qələbələrlə bildirirlər.

**Oqtay BAYRAMOV,**
**Əməkdar jurnalist**

Xalq qəzeti .- 2023.- 8 fevral.- S.5.